# Daşı da, torpağı da bərəkətli Daşkəsən

**Kiçik Qafqazın şimal-şərqində, dəniz səviyyəsindən 1800 metr yüksəklikdə yerləşən Daşkəsən sanki bir dağlar gözəlidir. Buraların təmiz havası, bol yaşıllığı, Murovdağ silsiləsi boyunca uzanan meşə massivi Daşkəsənə gələnləri heyran edir.**

**"... Kənd təsərrüfatının, sahibkarlığın inkişafı isə bizim üçün prioritet istiqamətlərdir. Biz ərzaq təhlükəsizliyimizi tam şəkildə təmin etməliyik. Bu istiqamətdə çox önəmli addımlar atılır. Özümüzü əsas ərzaq məhsulları ilə 100 faiz təmin etmək üçün biz artıq bu hədəfə yaxınlaşırıq. Ərzaq təhlükəsizliyimizin tam şəkildə təmin edilməsi, ixrac potensialımızın artırılması gələcəkdə həm iş yerlərinin yaradılmasına, eyni zamanda, insanların rifah halının yaxşılaşmasına xidmət edəcəkdir".**

***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Əliyev***



### *Görülən iş üz ağardır*

Son illər Daşkəsənin siması başdan-başa dəyişib, müasirləşib. Rayon rəhbərliyi buranın zəhmətsevər insanları ilə əl-ələ verərək dağlar qoynunda gözəlliklər yaratmağa nail olub. Təsadüfi deyil ki, abadlıq-quruculuq işlərinə diqqət artırılıb, yeni müəssisələr yaradılıb, iş yerlərinin sayı əvvəlki illərə nisbətən, xeyli çoxalıb.

Bu gün iqtisadi inkişafa nail olan bölgələrimizdən söhbət düşəndə Daşkəsən rayonunun da adı ön cərgələrdə çəkilir. Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Daşkəsənə son səfərləri zamanı rayonda vüsət alan tikintini, abadlıq-quruculuq işlərini yüksək qiymətləndirib, bu prosesin davamlı olmasına inandıqlarını bildiriblər. Dövlət başçısının görülən işlərə verdiyi qiymət rayon rəhbərliyini və zəhmətsevər sakinləri yeni uğurlara ruhlandırıb.

Ötən dövr ərzində Daşkəsən rayonunda genişmiqyaslı işlər görülüb, insanların sosial rifah halının daha da yaxşılaşdırılması istiqamətində əhəmiyyətli irəliləyişə nail olunub. Ölkə rəhbərliyi tərəfindən qarşıya qoyulan bütün vəzifələr uğurla icra edilib.

Azərbaycanımız öz dinamik inkişaf tempi ilə bütün dünyaya səs salmaqdadır. Ölkəmiz əksər regional və transmilli layihələrdə əsas söz sahibi kimi çıxış edir. Bu da hamımızı qürurlandırır. Daşkəsənlilər ölkəmizin inkişafında və daha da qüdrətlənməsində yaxından iştirak edirlər. Bu ilin altı ayı ərzində rayonda görülən işlər, qarşıda duran məsul vəzifələr yaxın günlərdə geniş müzakirəyə çıxarılacaq. Ötən ilki nəticələr də üz ağardır. Ona görə də rayon icra hakimiyyətində, ayrı-ayrı müəssisə və təşkilatlarda görülən işlərdən həvəslə danışırlar.



Daşkəsən rayonunda iqtisadiyyatın əsas sahələrində istehsal olunan məhsul və xidmətlərin ümumi həcmi əvvəlki ilə nisbətən müxtəlif sahələr üzrə artıb. Ötən il rayonda ümumi məhsul istehsalında qeyri-dövlət sektorunun xüsusi çəkisi 95 faizi təşkil edib. 217884, 7 min manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunub. Əhaliyə 239,8 min manatlıq rabitə xidmətləri göstərilib.

Ölkəmizdə sahibkarlığın inkişaf etdirilməsi üçün hüquqi bazanın möhkəmləndirilməsi, dövlətin bu vacib sahəyə hərtərəfli dəstək verməsi daşkəsənli fermerlərin də işinə yarayıb. Rəsmi məlumatlara görə, Sahibkarlığa Kömək Milli Fondu Daşkəsən rayonunda 2013-cü ildə 34 sahibkara 501 min manat, ötən il isə 49 sahibkara 637 min manat məbləğində güzəştli kredit ayırıb. Bu kreditlər hesabına 2013-cü ildə 59, ötən il 85 yeni iş yeri açılıb. Yeri gəlmişkən, ümumilikdə rayon üzrə 2013-cü ildə 220-si daimi olmaqla 259, 2014-cü ildə isə 213-cü daimi olmaqla 328 yeni iş yeri açılması bu sahədə irəliləyişin olduğunu göstərir.

Ötən il 500 nəfər rayon ərazisində mövsümi təmir-tikinti işlərinə cəlb olunub. 2014-cü ildə rayonda sənaye müəssisələrində çalışan bir işçiyə düşən orta aylıq nominal əməkhaqqı 345 manat, dövlət sektorunda isə 355,5 manat təşkil edib. Bir çox uğurlarla yadda qalan 2014-cü ildə rayonun büdcəsinin icrası gəlirlər üzrə 99,9 faiz, xərclər üzrə 96,7 faiz yerinə yetirilib.

### *Xoşbulağa gedən yol*

Daşkəsəndə tikinti, təmir-bərpa, yenidənqurma, abadlıq-quruculuq işlərinə xüsusi diqqət ayrılıb. Rayon rəhbərliyi bunu prioritet məsələlərdən biri kimi müəyyən edib. Ötən il rayon statistika idarəsinin inzibati binasının tikintisi başa çatdırılaraq istifadəyə verilib, rayonun Quşçu qəsəbəsində qəzalı vəziyyətə düşən binanın sakinlərinin köçürülməsi üçün 16 mənzilli yaşayış binasının tikintisi başa çatdırılıb, S. Vurğun adına 4 saylı şəhər, Alunitdağ qəsəbə, Kəmərqaya, Astaf kənd tam, Əhmədli, Xoşbulaq kənd ümumi orta məktəblərində və Quşçu kənd uşaq bağçasında, Qabaqtəpə kənd xəstəxanasında, Zəylik və Çovdar tibb məntəqələrində, Xoşbulaq 2 saylı kitabxanasında, Qazaxyolçular kənd klubunda və Quşçu kənd mədəniyyət evində təmir işləri aparılıb. Bundan başqa, Daşkəsən-Xoşbulaq avtomobil yolu əsaslı təmir olunub, Daşkəsən şəhərinin girəcəyindən başlamaqla Heydər Əliyev prospektinə və Heydər Əliyev meydanına, o cümlədən, bəzi küçələrə yeni asfalt örtüyü salınıb. Daşkəsən şəhərinin girəcəyində Mərkəzi Kitabxana, rayon ərazisində yerləşən 2 ədəd dəmir yolu körpüsü əsaslı təmir olunub. Həmçinin, Alunitdağ qəsəbəsində 35/6 kv-luq elektrik yarımstansiyasının tikintisi başa çatdırılıb. Daşkəsən şəhərində küçələrin işıqlandırma sistemi yenidən qurulub, şəhərin küçələrindəki istinad divarlarında, səkilərdə təmir işləri aparılıb. Şəhər sakinlərinin asudə vaxtlarını səmərəli keçirmək üçün hər cür şərait yaradılıb. Dövlət bayramları, əlamətdar günlər indi Daşkəsəndə böyük təntənə ilə qeyd olunur, rayonunun gənc istedadları bu işə cəlb edilir.

**Son illər Daşkəsən şəhərinin özü də, ayrı-ayrı qəsəbə və kəndləri də tanınmaz dərəcədə dəyişib, abadlaşıb. Daşkəsən artıq əvvəlki Daşkəsən deyil.**

**(Ardı gələn sayımızda)**

***Etibar CƏBRAYILOĞLU***

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ**